Adımız məfkurəmizdir

13 – 19 dekabr 2022-ci il

Türküstan

www.turkustan.az

Gülşən Hacıyeva

# Türkiyənin turizm cənnəti: Qərbi Qara dəniz



I yazı

### Hər qarışı tarix qoxuyan Mudurnu...

*Türkiyənin turizm cənnəti olduğunu bilməyən az insan olsa da, Anadolunun kəşf edilməmiş hələ çox yerləri var. Yüksək keyfiyyət, xidmətinə görə turizmin bütün sahələrində ilk sıralarda yer alan Türkiyə turistlərin ən çox seçdiyi ölkələrdən birinə çevrilib. Qara dəniz Anadolunun sirli tarixi məkanları ilə zəngin bölgələrindəndir.*

*Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Qərbi Qara dənizi tanıtmaq məqsədilə gerçəkləşdirdiyi layihə çərçivəsində Türk dövlətlərindən bir qrup jurnalistlə bölgəni ziyarət etdik.*

*İlk dayanacağımız tarixi Bolu vilayətinin Mudurnu rayonudur. Hər qarışı tarix qoxuyan Mudurnu dünyanın mədəniyyət beşiklərindən sayılan İstanbuldan 240 km uzaqda yerləşir.*




**Tarixi İpək yolu üzərində yerləşən Mudurnu Osmanlı İmperatorluğunun ilk vaxtlarından önəmli ticarət və mədəniyyət bölgələrindən olub. Mudurnu çayı vadisində dağlıq-meşəlik ərazidəki bu bölgə coğrafi mövqeyi, təbiəti ilə insanı valeh edir...**
**Yaşıllığı göz oxşayan rayonda 165 ev, 8 məscid, çeşmə, hamam daxil olmaqla, 173 memarlıq abidəsinin olduğu ərazi qorunan bölgə elan edilib. Bu ərazi UNESCO-nun mühafizə olunan tarixi miraslar siyahıdında yer alıb. Mudurnuya gedərkən yol boyu sıx meşələr, dağların arasında gizlənmiş kəndlər, sıldırım qayalar, müxtəlif ölçülü təpələr birbirini əvəzləyir. Göz oxşayan təbiəti, oksigenlə bol havası insan əhvalını yaxşı mənada elə dəyişir ki, özünü nağıllar aləmində sanırsan...**

### Mudurnu haqqında qısa məlumat:

Tarixi İpək yolu üzərində yerləşən Mudurnu Osmanlı İmperatorluğunun ilk vaxtlarından önəmli ticarət və mədəniyyət bölgələrindən olub. Mudurnu çayı vadisində dağlıq-meşəlik ərazideki bu bölgə coğrafi mövqeyi, təbiəti ilə insanı valeh edir.

Yaşıllığı göz oxşayan rayonda 165 ev, 8 məscid, çeşmə, hamam daxil olmaqla, 173 memarlıq abidəsinin olduğu ərazi qorunan bölgə elan edilib. Bu ərazi UNESCO-nun mühafizə olunan tarixi miraslar siyahıdında yer alıb.



*Mudurnuya gedərkən yol boyu sıx meşələr, dağların arasında gizlənmiş kəndlər, sıldırım qayalar, müxtəlif ölçülü təpələr birbirini əvəzləyir. Göz oxşayan təbiəti, oksigenlə bol havası insan əhvalını yaxşı mənada elə dəyişir ki, özünü nağıllar aləmində sanırsan.*

Rayon mərkəzinə yaxınlaşdıqca eyni boyda, eyni ölçüdə, eyni formada, eyni rəngdə binalar, restoranlar, iş yerləri, yaşayış evləri sanki bir rəssamın əlindən çıxmış rəsm tablosudur. Bütün binaların qapı və pəncərələri kərpic damı ilə eyni rəngdə boyanıb, yollarına daş döşənib. Mərkəzi küçələr, bazar, döngələr bir birinə o qədər bənzəyir ki, sanki eyni yerləri təkrar gəzirsən.

Tarixi saat qülləsi, 14-cü əsrə aid İldırım Bəyazıd məscidi isə insanı çox qədimlərə aparır. Bölgə insanının əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Əsasən, arpa-buğda əkinçiliyi, maldarlıqla məşğul olan rayon əhalisinin yüz illərdir, dəyişməyən bir ənənəsi də var. Hər il iyulun ilk bazar günü İmran Vəli Həzrətlərinin türbəsinin olduğu dağa çıxılır, heyvanlar kəsilir, yeməklər bişirilir, paylanır. Bu mərasimə təkcə bölgə sakinləri qatılmır. Ətraf rayon və şəhərlərdən, İstanbuldan, Ankaradan minlərlə insan bölgəyə gəlir, mərasimdə iştirak edir. Hər il iyulun 10-dan sonra isə biçin başlayır. Bölgə xalqı məhsul toplama işinə səfərbər olur. Bu arada Mudurnu ən çox iki yeməyi ilə məşhurdur: mantı və qaşıq sapı. Mudurnu halvaları isə təkcə Türkiyədə yox, bütün dünyada tanınır.

Mudurnu ərazisində bir birindən gözəl, əsrarəngiz görünüşə malik göllər və isti sular da mövcuddur.

Bunlardan Abant gölü böyüklüyünə, təbiətinə, gözəlliyinə görə xüsusi seçilir. Abant və Mudurnu sıra dağları arasında oval şəklində olan Abant Gölü rayon mərkəzinə 18 km məsafədədir. Yayın qızmarında şəhərdən qaçıb təbiətlə baş başa qalmaq istəyənlər üçün əvəzedilməz məkan olan Abant gölü payızda bir başqa gözəl olur. Qışda ağ dona bürünüb, insanın ruhunu dincəldir. Yazda isə yamyaşıl, al-əlvan rəngləri ilə bir təbiət möcüzəsinə çevrilir. Yeni Abant gölü bütün fəsillərdə öz gözəlliyini, qeyri-adiliyini qoruyub saxlayır.

***Bir sözlə, böyük şəhərlərin qarışıqlığından, səs-küyündən yorulanlar, isti sularından şəfa tapmaq istəyənlər, tarixə səyahət etmək arzusunda olanlar yollarını mütləq Mudurnudan salmalıdırlar.***

ardı olacaq..

